AZƏRBAYCAN RESPUBLİKASI

# TƏHSİL NAZİRLİYİ

*№ 46-03-43/17*

*« 09 » 01 2007 il*

**Dövlət və qeyri-dövlət ali təhsil müəssisələrinin rəhbərlərinə**

Təhsil Nazirliyi tələbələrin köçürülməsi prosesində şəffaflığı təmin etmək məqsədi ilə xarici ölkələrdə təhsil alan tələbələrin respublikanın ali məktəblərinə köçürülməsi zamanı Nazirliyin 28.01.2002-ci il tarixli 80 №-li əmrinə, 21.01.2004-cü il tarixli 46-03-274/16 №-li təlimati məktubuna və qüvvədə olan əsasnamənin tələblərinə ciddi əməl etməyi Sizə tapşırır. Eyni zamanda bildiririk ki, köçürülmə ilə bağlı rəhbərlik etdiyiniz ali məktəbə daxil olan ərizələrə qiymət kitabçasından çıxarışla yanaşı tələbənin xarici pasportunun surəti və təhsil aldığı ölkədə müvəqqəti pasport qeydiyyatı haqqında sənəd də əlavə olunmalıdır. Göstərilən sənədlər təqdim olunmadığı halda köçürülmə məsələsinə baxılmayacaqdır.

**Misir Mərdanov**